## Satınalmanın nəticələrinə dair

## BİLDİRİŞ

Təchizatçının adı: “Aktiv Enerji” MMC

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin adı və soyadı: **Natiq Hüseynov**

Təchizatçının ünvanı: **BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, CƏFƏR CABBARLI 40**

Təchizatçının e-poçt ünvanı: natiqhuseyn**@aktivenerji.az**

Bildirişin göndərilmə tarixi: **17.08.2026-cı il**

Satınalan təşkilatın adı: **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

Satınalma predmeti : Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin inzibati binasında elektrik naqillərinin izolyasiyasının gərginliyə qarşı müqavimətinin ölçülməsi xidmətlərinin satın alınması

Satınalma elan tarixi: **23.06.2026-cı il**

---

Satınalmanın nəticələrinə dair bu bildiriş (bundan sonra - Bildiriş) yuxarıda göstərilən satınalma predmeti üzrə təklifini aksept etmək qərarı verdiyimiz Təchizatçı barədə məlumat vermək üçün göndərilib. Bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır. Gözləmə müddəti ərzində:

a) satınalmanın nəticələri ilə bağlı Satınalan təşkilata müraciət edə və (və ya)
b) satınalmanın nəticələrindən şikayət edilə bilər.

### 1. Qalib təchizatçı

| | |
|---|---|
| Adı: | **“Aktiv Enerji” MMC** |
| VÖEN-i: | **8401505951** |
| Ünvanı: | **BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, CƏFƏR CABBARLI 40** |
| İmzalanması nəzərdə tutulan müqavilənin məbləği: | **1062,00 (bir min altmış iki) manat** |
| Yekun balı: | **100,00** |

### 2. Gözləmə müddəti

*Müddətin sonu:* **Gözləmə müddəti 24.08.2026-cı il iş gününün sonu bitir.**

Bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur.

Satınalma komissiyası gözləmə müddətinin qüvvədə olduğu dövrdə Təchizatçıların təqdim etdiyi müraciətləri (o cümlədən şikayətləri) 5 (beş) iş günü ərzində araşdıraraq cavablandırır. Aparılan araşdırma zamanı satınalmanın nəticələri haqqında yekun

protokol ləğv edilərək yenisi tərtib olunarsa, bu hal üçün yenidən gözləmə müddəti tətbiq edilir.

### 3. Satınalmanın nəticələrinin aydınlaşdırılması və ya nəticələrdən şikayət etmək üçün necə müraciət etmək olar

Satınalmadan kənarlaşdırılmamış təchizatçılar Satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz müraciətlərini (o cümlədən şikayətlərini) dövlət satınalmalarının vahid internet portalı (etender.gov.az) vasitəsilə gözləmə müddətində verirlər.

Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən Təchizatçıya göndərir.

Satınalan təşkilat göstərilən müddət ərzində qərar qəbul etmirsə, Təchizatçı bununla bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra Satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

Bildirişlə bağlı hər hansı sualınız varsa, bizimlə əlaqə saxlayın.

Satınalan təşkilatın adından :

**Ad və soyad:** **Rauf Səlimov**

**Vəzifə:** **Sədrin müavini**

**İmza və möhür:** R. Səlimov

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN